# Leyla Əliyevanın yeni kitabı Türkiyə türkcəsində




Yaşıdları arasında poetik istedadını dərin məzmunlu, obrazlı, fəlsəfi şeirləri ilə təsdiq etdirmiş Leyla Əliyevanın "Sənsiz də səninləyəm" adlı yeni kitabı bu yaxınlarda Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Türk Ədəbiyyatı Vakfı Yayınları tərəfindən nəşr edilmişdir. Rus dilindən Azərbaycan dilinə Adil Cəmilin çevirmələri əsasında İmdat Avşar Leyla xanımın şeirlərini türkiyə türkcəsinə uyğunlaşdırmışdır. Kitabın layihə rəhbəri Cavid, ön sözün müəllifi Adil Cəmil, dizayneri Atilla Ceylandır.



*Lirik-felsefi şiirleriyle okuyucuların sevgisini ve rağbetini kazanmış yetenekli Azerbaycan şairi Leyla Aliyeva'nın Türkiye'de ilk kez yayımlanan bu kitabında, onun zengin poetik yaratıcılığından seçilmiş eserler toplanmıştır.*

*Saf sevgi, pak muhabbet, tabiata karşı duyarlılık, insanlara insanî münasebet ve vatanseverlik duyguları bu şiirlerin ana eksenini oluşturmaktadır.*

Nəfis tərtibatla, yüksək poliqrafik icrada işıq üzü görən kitabın annotasiyasında oxuyuruq: "lirik-fəlsəfi şeirləri ilə oxucuların sevgisini və rəğbətini qazanmış istedadlı Azərbaycan şairi Leyla Əliyevanın Türkiyədə ilk dəfə yayımlanan bu kitabında onun zəngin poetik yaradıcılığından seçilmiş əsərlər toplanmışdır. Saf sevgi, pak məhəbbət, təbiətə qarşı həssaslıq, insanlara insani münasibət və vətənsevərlik duyğuları bu şeirlərin ana xəttini təşkil edir".

Türk oxucusuna yönləndirilmiş bu lakonik mətndə Leyla Əliyevanın mövzu dairəsi, dünyaduyumu, poetik özünəməxsusluğu haqqında informasiya verilir.

Bundan öncə Leyla Əliyevanın "Ünsiyyət" adlı poetik toplusunu Azərbaycan dilinə çevirən şair-tərcüməçi Adil Cəmilin bu kitaba yazdığı müqəddimə də istedadlı bir yazarın hansı uğurlara imza atdığını təsdiqləyir: "Gənc və İstedadlı şair Leyla Əliyevanın şeirləri min illərdən süzülüb gələn poetik sözün yeni dövrdə də yeni biçimlərlə öz təravətini saxlamaq əzmində olduğunu göstərir".

İnanırıq ki, soydaş və qardaş türkiyə oxucusu Leyla Əliyevanın türkiyə türkcəsində ilk dəfə nəşr olunan "Sənsiz də səninləyəm" adlı lirik-fəlsəfi şeirlər kitabını rəğbətlə qarşılayacaq.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 10 sentyabr.- S. 5.**